EMİL AĞAYEV

# TƏSVİRİ SƏNƏTİN TƏDRİSİ METODİKASI

(PEDAQOJİ VƏ PSİXOLOJİ YANAŞMALAR KONTEKSTİNDƏ)

METODİK VƏSAİT



**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**EMİL AĞAYEV**

# TƏSVİRİ SƏNƏTİN TƏDRİSİ METODİKASI

## (PEDAQOJİ VƏ PSİXOLOJİ YANAŞMALAR KONTEKSTİNDƏ)

**METODİK VƏSAİT**

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin Tədris-Metodiki Şurasının 12.09.2024-cü il tarixli 01 saylı iclasının protokoluna əsasən təsdiq edilmişdir.*

**“ZƏNGƏZURDA” Çap Evi**

**Bakı 2024**

**Rəyçilər:** **Samir Qismət oğlu Sadıqov**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aynur Tahir qızı Seyfullayeva**
ADPU-nun nəzdində Azərbaycan Dövlət
Pedaqoji Kollecinin müəllimi

**Sevinc Mahmudağa qızı Babaxanova**
ADPU-nun nəzdində Azərbaycan Dövlət
Pedaqoji Kollecinin müəllimi

**Elmi redaktor: Ziyadxan Alxan oğlu Əliyev**
Azərbaycan Respublikasının Əməkdar
incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə
doktoru, professor

**Təsviri sənətin tədrisi metodikası (pedaqoji və psixoloji yanaşmalar kontekstində). Metodik vəsait.**
Bakı: "ZƏNGƏZURDA" Çap Evi, 2024, 40 səh.

Metodik vəsaitdə təsviri sənət fənninin orta məktəblərdə tədrisindəki əhəmiyyəti pedaqoji və psixoloji yanaşmalar kontekstində təhlil edilmişdir. Həmçinin pedaqoji nəzəriyyələrin təsviri sənət fənninin tədrisi metodikasındakı rolu müxtəlif izahlar və təhlillərlə təqdim edilmişdir.
Vəsait təsviri sənət yönümlü ali və orta ixtisas təhsili müəssisələrinin müəllim-tələbələri ilə barəbər, ümumtəhsil məktəblərində təsviri sənət fənnini tədris edən pedaqoji heyət üçün də nəzərdə tutulmuşdur.

**DOI: https://doi.org/10.36719/2024/40**

**© E.Ağayev, 2024**
**© ZÇE, 2017**

# GİRİŞ

Dünya ölkələrinin qarşısında duran vacib məsələlərdən biri təhsilin inkişafı və formalaşmaqda olan gənc nəslin daha istedadlı, qlobal dəyişikliklərin fonunda özlərinin inkişaf istiqamətlərini izləmələridir. Qeyd etmək lazımdır ki, müasir təhsilin əsas öndə gedən simaları müəllim və şagirdlərdir. Müxtəlif pedaqoji və psixoloji yanaşmalar hər bir fənnin tədrisində əsas alət rolunu oynayır.

Orta məktəblərdə tədris edilən əsas fənlərlə bərabər, şagirdlərin yaradıcı qabiliyyətlərinin üzə çıxarılması və dünyagörüşlərinin inkişafında mühüm rol oynayan təsviri sənətin adını da vurğulamalıyıq. Formalaşmaqda olan şagirdlər təsviri sənət fənni ilə xalqımızın adət-ənənələrini, tarixini, yaşayış tərzini, müxtəlif ölkələrin incəsənətini, yerli və xarici rəssamların yaradıcılığını və əsərlərinin təhlil metodikasını öyrənirlər. Əlbəttə ki, bütün bu uğurlu inkişaf yoluna çatmaq üçün pedaqoji və psixoloji nəzəriyyələri ön plana çıxarmalıyıq. Çünki hər bir nəzəriyyə sanki təsviri sənət fənnini tədris edən müəllim üçün açar rolunu oynayır.

"Çoxnövlü zəka" nəzəriyyəsi özündə müxtəlif tip intellektləri birləşdirir. Daha çox məkan-vizual intellektdə təsvir və şəkillərlə şagirdlər daha çox öyrənirlər. "Zehni inkişafın mərhələləri" nəzəriyyəsində uşaqların hissi-hərəki mərhələsindən formal əməli dövrünə qədər təsviri sənətin rolu mühümdür. Uşaqların rəng, obraz və müxtəlif əsərlər haqqında fikirləri müxtəlif yaş mərhələlərinə görə dəyişir. "Sosial inkişaf" nəzəriyyəsinin təsviri sənət fənninin tədrisində rolunu təhlil etsək skafoldinq strategiyasını ön plana çıxarmalıyıq.

Dərs zamanı təsviri sənət müəllimi şagirdlərə tapşırıq verən zaman ardıcıllığı gözləməklə diqqətində saxlamalıdır. “Düşüncə tərzi” nəzəriyyəsinin təsviri sənət fənninin tədrisi metodikasında roluna diqqət yetirsək, inkişafa açıq və qapalı düşüncə tərzinə malik olan şagirdlərin yaradıcı-psixoloji qabiliyyətlərini nəzərə alan müəllim onlara fərqli yanaşma metodlarından istifadə etməlidir. “Mənəvi inkişaf” nəzəriyyəsinə diqqət yetirsək, psixoloji və universal etik prinsipləri özündə birləşdirir və təsviri sənət müəllimindən şagirdlər üçün maraqlı dərs qurulması baxımından mühümdür. “Öyrənmənin şərtləri” adlanan digər bir nəzəriyyədə dərsin düzgün qurulması və öyrədilməsi ardıcıllığı yaradıcı fənnin tədrisi metodikasında öyrədilir. “Emosional zəka” nəzəriyyəsinin dətəsviri sənət fənninin tədrisi metodikasında əhəmiyyətini nəzərə alsaq, dərs zamanı motivasiya üzərində qurulan dərsə müxtəlif yanaşmaları izləyə bilərik.

Əlbəttə ki, təsviri sənət fənni formalaşmaqda olan şagirdin şəxsiyyət kimi inkişafında müxtəlif bilik və bacarıqları özündə birləşdirir. İncəsənət əsərlərinə fərdi yanaşma və müstəqil fikirlər formalaşmaqda olan şagird üçün əhəmiyyətlidir. Şagirdin dünyagörüşünün formalaşması, Azərbaycan və dünya təsviri sənətinin görkəmli nümayəndələrini tanımaq, ümumilikdə müəllimdən tələb olunan əsas öyrətmə bacarıqlarından biri kimi tələb olunur.

# TƏSVİRİ SƏNƏT FƏNNİNİN TƏDRİSİ METODİKASINDA "ÇOXNÖVLÜ ZƏKA" NƏZƏRİYYƏSİNİN TƏTBİQİ

Təhsil daima inkişaf və yeni təlim metodları ilə xarakterizə edilir. Şagirdlərin bilik və bacarıqlarının formalaşması və inkişafı isə təhsil üçün əhəmiyyətlidir. Hər bir müəllim şagird üçün maraqlı öyrənmə metodları seçməlidir.

Şagirdlərin məktəbdə öyrəndiyi biliklərin çox az bir hissəsinin yadda qalması və istifadə edilmək üçün yararsızlığının səbəbini H.Qardner tədris prosesində onların fərdi xüsusiyyətlərinin nəzərə alınmamasında görürdü. Təsviri sənət fənninin təlim prosesində şagirdlərin fərqliliyini nəzərə alaraq, informasiya müxtəlif şəkildə ötürülərək daha səmərəli öyrədilməlidir.

H.Qardner xüsusilə qeyd edir ki, ilk növbədə şagirdlərin öyrənmə bacarıqlarını müəyyən etmək, sonra isə ona uyğun fəaliyyət seçərək bilik ötürülməlidir. Bu baxımdan intelektin növlərini və hər növə xas olan xarakterik xüsusiyyətləri bilmək müəllimlər, şagirdlər və ümumiyyətlə bütün təhsil işçiləri üçün əhəmiyyətli ola bilər. Şagirdlərin öz intelekti haqqında məlumatlı olması özünü tanımaq imkanı yaradır.

H.Qardner şagirdlərin intelektlərini aşağıdakı kimi təsnif edir:

**1. Verbal-linqvistik intellekt**: Təsviri sənət fənninin tədrisi metodikasında verbal-linqvistik intellektə başqalarını inandırmaq, müəyyən bir məlumatı yadda saxlamaq və ya informasiya vermək daxildir. Şagirdlər təsviri incəsənət fənnindən şəxsi gündəliklər tutaraq orada qeydlər apara bilərlər.

Şagirdlər müəyyən rəssamın əsəri haqqında fikirləri müəyyən vərəqlərdə qeyd edə bilərlər.

**2. Məntiqi riyazi intellekt:** Təsviri sənət fənninin tədrisi metodikasında məntiqi riyazi intellekt düzgün mühakimə qabiliyyətidir. Burada əsasən təsnifetmə, ümumiləşdirmə kimi proseslərdən istifadə olunur. Bu tip intellektdə təsviri incəsənət müəllimi lövhəyə üç cərəyan yazaraq şagirdlərdən hər birinə aid nümunələr gətirərək təsnifat və kateqoriyalara ayırma tapşırığını verə bilər.

**3. Məkan-vizual intellekt:** Təsviri sənət fənninin tədrisi metodikasında məkan-vizual intellekt növü əsas qabiliyyət kimi xarakterizə edilib, verilmiş məkanı vizual olaraq dərk etmək və qavramaya əsaslanaraq müəyyən dəyişikliklər etmək bacarığıdır. Şagirdlər fovizm cərəyanı haqqında materialı oxuduqdan sonra beyinlərində rəsm əsəri işləyirlər. Bu intellekti yüksək olan şagirdlər rənglərə qarşı çox həssas olurlar. Hətta bu intellekt tipinə aid olan şagirdlər kitab oxuyarkən mövzudakı açar sözləri qırmızı ilə, anlaşılmayan yerləri isə sarı ilə rəngləyirlər.

**4. Bədən kinestetik intellekt:** Təsviri sənət fənninin tədrisi metodikasında bədən kinestetik intellekt növü əsasən bütün bədən üzvlərindən istifadə etmək, əl işləri hazırlamaq və onları dəyişdirmək daxildir. Şagirdlərin daxilində olan aktyorluq qabiliyyətini oyatmaq üçün sinif teatrı kimi mühüm bacarığı inkişaf etdirə bilərlər. Ogüst Renuarın "Avarçəkənlərin səhər yeməyi" əsərini müəllim sinifdə teatrallaşdıra bilər.

**5. Musiqi-ritmli intellekt:** Təsviri sənət fənninin tədrisi metodikasında bu intellekt növü daha çox sintez xarakteri

daşıyır. Müəllim öyrətmək istədiyi bir şeyin əsas vacib hissəsini götürür və onu ritmik və ya lirik mahnı formatına salır. Rafael Santi yaradıcılığını İtaliya musiqisi ilə əlaqələndirərək dərsin intellekt növünü dəyişdirmək olar.

**6. Şəxslərarası intellekt:** Bu intellekt növündə təsviri incəsənət müəllimi şagirdlərin hissləri, niyyətləri, motivasiyaları və xüsusilə əhvali-ruhiyyələrini dərk edərək ünsiyyət qurmalarını dəstəkləməlidir. Təsviri incəsənət müəllimi yoldaşınla paylaş strategiyasından istifadə edərək dərslə əlaqəli müəyyən məlumatları özündə əks etdirən fikirlər təqdim edə bilər. Qrup tapşırıqlarından isə slaydlar üzərində müxtəlif bacarıqları olan şagirdlər öz mövzularını təqdim edirlər.

**7. Fərddaxili intellekt:** Təsviri incəsənət müəllimi fərddaxili intellekt növündə daha çox aşağıdakı inkişaf tendensiyaları üzərində çalışmalıdır:

- məqsədin müəyyən edilməsi;
- inkişafın izlənilməsi;
- şagirdin qabiliyyətinin sadədən mürəkkəbə doğru inkişafı;
- şagirdin estetik zövqünün formalaşması və inkişafı.

**8. Naturalist intellekt:** Təsviri incəsənət fənninin tədris metodikasında naturalist intellekt növü şagirdlərin ən çox sevimli öyrənmə mənbələrindən-təbiətlə əlaqələndirilir. Şagirdlər təbiət önündə rəsmlər işləyə bilər.

**9. Şagird intellektinin müəyyənləşdirilməsi:** Bu intellekt növü zamanı isə təsviri sənət müəllimi aşağıdakı əsas fikirləri ön plana çıxarmalıdır:

- Şagirdlərin fənnə qarşı münasibəti;
- Şagirdlərin müstəqil ideyalarının təhlili;

- Şagirdlərdə əsərin təhlili üzərində bacarıqların inkişafı.

İntellekt növlərinin hər biri şagirdlərin formalaşması, inkişafı və istedadlarının üzə çıxarılması üçün mühümdür.

# TƏSVİRİ SƏNƏT FƏNNİNİN TƏDRİSİ METODİKASINDA "ZEHNİ İNKİŞAFIN MƏRHƏLƏLƏRİ" NƏZƏRİYYƏSİNİN TƏTBİQİ

İsveçrədə doğulan Jan Piaje dövrünün ən böyük alimlərindən biri olub, zehni inkişafı sistemli şəkildə araşdıran ilk psixoloqdur. Onun tədqiqatlarının əsasında uşaqların suallara səhv cavab verməsi çəkir və o, uşaqlar düşünən zaman baş verən proseslər barədə maraqlanmağa başlayır. Və bu nəzəriyyənin tədrisi zamanı uşaqların suallara səhv cavab verməsi böyüklərlə uşaqların düşünməsində ciddi fərqlərin olduğunu aşkara çıxarır. "Zehni inkişafın mərhələləri" nəzəriyyəsinin tətbiqi həmçinin təsviri sənət fənninin tədris metodikasında da istifadə edilir.

Təsviri sənət fənni şagirdlərdə yaradıcılıq qabiliyyətlərini inkişaf etdirdiyinə görə onların nəzəri və ya rəsm tapşırıqlarını özləri sərbəst etmələri uğurlu nəticələrə gətirib çıxarar.

Təsviri sənət fənninin tədrisi zamanı uşaqlara öyrənməni özləri həyata keçirsinlər deyə, mümkün olan hər bir imkandan istifadə etmək lazımdır. Orta məktəblərdə təsviri sənət fənninin tədrisi zamanı müəllim ənənəvi informasiya vermək obrazını dəyişdirərək, şagirdlərdə tədqiqat aparmaq bacarıqlarını inkişaf etdirməlidir. Misal üçün, lessirovka termini barəsində danışandan sonra şagirdlər müstəqil olaraq bu mövzuda işləməlidirlər.



**İLL 1. Lessiorvakadan istifadə qaydalarının öyrədilməsi**

Təsviri sənətin tədrisi metodikası zamanı Piaje nəzəriyyəsinin tətbiqi uşaqların körpəlikdən yetkinliyə qədərki dövrdə düşünmə və problem həlletmə bacarıqlarını inkişaf etdirir. Əsasən 4 mərhələni əhatə edir:

**1. Hissi-hərəki mərhələ:** Bu mərhələnin tətbiqi 2 yaşa qədər körpələrin əsasən rənglərə qarşı münasibətlərini xüsusilə vurğulaya bilərik. Hislər və reflekslərlə öyrənmə, əşyaların rənginə uyğun olaraq yaxınlaşmaq bu mərhələdə formalaşan uşaqlar üçün vacibdir. Estetik zövqün formalaşması və ilkin olaraq rəngə qarşı münasibətdə bu mərhələnin spesifik əlamətidir.

**2. İlkin əməli mərhələ:** Bu mərhələdə təsviri sənətin tədrisi uşaqlarda qavramaya əsaslanaraq ideyalarını formalaşdırır, ümumiləşdirmələr aparır. Təxminən 2-7 yaş aralığı-

nı əhatə edən bu mərhələnin əsas əlaməti dilin inkişafıdır. Müəllim 7 yaşında uşaqlara Səttar Bəhlulzadənin “Cıdır düzü”, “Mənim anam” və “Abşeron bağlarında” əsərlərini göstərir və ümumiləşmiş obraz haqqında uşaqlar danışmalıdır.



**İLL 2.Səttar Bəhlulzadə “Mənim anam”**

**3. Konkret əməli mərhələ:** Bu mərhələdə təsviri sənətin tədrisi zamanı 7-11 yaşlı şagirdlər ön plana çıxarılır, mühakiməyə əsaslanaraq fikirlərini formalaşdırır. Konkret fikirlərlə əsərlər barəsində məntiqli mühakimələr aparır. Misal üçün, natürmortun akvarellə çəkilmə ardıcıllığını şagirdlər məntiqi ardıcıllıqla düzgün işləyə bilər. Təsviri incəsənət müəllimi təqdim edilmiş əsərlərdə rəng və ton kontrastını müəyyənləşdirməyi şagirdlərdə formalaşdırmalıdır.



**İLL 3.**

**Sakit Məmmədov “Sibel”**
**Vüqar Əli “ Şanapipik əfsanəsi”**
**Rəşad Cabarov “Güllər”**

**4. Formal əməli mərhələ:** Təsviri incəsənət fənninin tədrisi zamanı 11-12 yaşlı uşaqlarda zehni inkişaf mərhələləri əhatə edilir. Şagirdlər əsərləri təhlil edərək daha çox tənqidi fikirlər üzərində çalışırlar. Təsviri incəsənət müəllimi aşağıdakı qabiliyyətləri şagirdlərdə formalaşdıraraq formal əməli mərhələni inkişaf etdirilməlidir:

- əsərlər üzərində məntiqli mühakimənin aparılması;
- rənglərin uyğunlaşması və təsvir vasitələrinin təhlil edilməsi;
- rəssamların əsərlərinin oxşar-fərqli cəhətlərini qruplaşdırmaq.

Təsviri sənət fənninin tədrisi metodikasında “Zehni inkişafın mərhələləri” nəzəriyyəsinin tətbiqi şagirdlərin qabiliyyətlərinin və estetik zövqünün formalaşmasına əsaslanır.

## TƏSVİRİ SƏNƏT FƏNNİNİN TƏDRİSİ METODİKASINDA "YAXIN İNKİŞAF ZONASI VƏ SOSİAL MÜNASİBƏTLƏR" NƏZƏRİYYƏSİNİN ROLU

Təsviri sənət fənninin tədris metodikasında Lev Viqotskinin şagirdlərin öyrənməsi haqqında gətirdiyi yeni nəzəri qaydaların əhəmiyyəti xüsusilə vurğulanmalıdır. Onun nəzəriyyəsi əsasən sosial münasibətlərin zehni inkişafdakı fundamental rolundan bəhs edir. Fənnin tədrisi zamnı sosial və zehni inkişaflar bərabər gedir və bir-birini tamamlayır.

Viqotskiyə görə şagirdlərin öyrənmələrinin daha çox şəxsi təcrübələrinə əsaslandığı, şəxsi və sosial təcrübənin bir-birindən ayrılmaz olduğu fikrini də vurğuladı. Bu nəzəriyyənin təsviri sənət fənninin tədrisində şagirdlərin düzgün inkişafı üçün bir-biri ilə ünsiyyəti və ətraf aləmlə incəsənətin qarşılıqlı vəhdəti dayanır.

Şagirdlərin formalaşmasında mühüm rol oynayan təsviri sənət fənni onların estetik zövqü, dünyagörüşü və incəsənət əsərləri haqqında mühüm fikirlərin formalaşması üçün estetik dəyərləri özündə birləşdirir.Viqotskinin nəzəriyyəsinin təsviri sənət fənninin tədrisində tətbiqinin aşağıdakı əsas müddəaları vardır:

- zehni inkişafın əsasında sosial münasibətlər durur;
- öyrənmə inkişafdan daha əvvəl gəlir;
- şagirdlərin zehni inkişafı müəllimlər, yoldaşları və daha bilikli başqası ilə ünsiyyət zamanı baş verir.

Təsviri sənət fənninin tədrisində müəllim mövzuların tədrisi zamanı şagirdlərə onlardan daha bacarıqlı yoldaşları

ilə birgə öyrənmək üçün şərait yaratmalıdır. Həmçinin incəsənət əsərlərinin təhlili zamanı və fikirlərin bölüşməsində nitqin rolu mühümdür.

L.Viqotski Yaxın İnkişaf Zonasında öyrənmə prosesini "müvəqqəti körpü" kimi təsvir edirdi. Təsviri sənət fənninin tədris metodikasında skafoldinqin tətbiqi öyrənənə əsərlərin təsviri, müqayisəli təhlili, qısa esselər yazılmasında edilən dəstək, yardım etməkdir. Başqa sözlə desək, skafoldinq şagirdin öyrənməsində müstəqil nərdivandır, tam sərbəst görə bilmədiyi işdə yardım göstərməkdir. Təsviri sənət üzrə məşğələlərdə müəllim şagirdlərə müxtəlif tapşırıqların həllində qısa yol göstərərək, müstəqil olaraq yerinə yetirilən tapşırıqları ön plana çıxarmalıdır. Bu zaman müəllimin müşahidələrdən əldə etdiyi informasiya da şagirdlərin öyrənməsinə dəstək verə bilər.

Təsviri sənət fənninin tədrisi metodikasında skafoldinq metodu əsasən müəllimdən fasilitator rolu tələb edir. Bu yolla şagirdlər nəinki öyrənməyin, hətta öyrətməyin məsuliyyətini öz üzərlərinə götürürlər. Təsviri sənət müəllimi şagirdin müəyyən bir tapşırığı və ya ifadəni başa düşmədiyini gördükcə, skafoldinqdən istifadə edə bilər.

Aşağıda təqdim edilən Skafoldinq strategiyalarından bir neçəsi təsviri sənət fənninin tədrisində istifadə edilə bilər:

- Təsviri sənət müəllimi təlimatları şagirdlərə düzgün təqdim edərək, diqqət edir ki, şagird verilən təlimatı yetərincə anlasın. Başqa sözlə desək, müəllim təlimin məqsədlərini, şagirdlərin riayət etməli olduğu təlim nailiyyətlərini aydın şəkildə təsvir edir. Müəllim şagirdlərə tapşırığın nə üçün etdiklərini anladanda, bu zaman qiymətləndirmə mexanizmi

də düzgün formada vacib amil kimi başa düşülür. IX sinif təsviri sənət fənnində müəllim şagirdlərə "Rəssam və teatr sənəti" mövzusunu keçərkən rəssamlıq və teatr sənətlərinin qarşılıq əlaqəsini şagirdlərə izah etməlidir.

- Təsviri incəsənət müəllimi yeni dərsi keçərkən öncə keçilən dərsdə qazanılan bilik və bacarıqlarla əlaqələndirərək təsvir etməlidir. Müəllim yeni materialı tədris edərkən həm də şagirdlərin şəxsi maraq və təcrübələri ilə əlaqləndirə bilər. IX sinif təsviri sənət fənnində müəllim "Sakit Məmmədov: klassik və müasir üslubun sintezi" mövzusunu keçərkən əsasən iki və ya üç rəssamın yaradıcılığının oxşar-fərqli cəhətlərini şagirdlərlə müzakirə etməlidir.

- Təsviri sənət müəllimi dərsi keçərkən bir neçə kiçik hissələrə bölür. Həmçinin şagirdlərə mövzunu daha dəqiq öyrətmək üçün slayd, şəkil və vizual qrafiklərdən istifadə edə bilər.

- Təsviri sənət müəllimi şagirdlərə hər hansı bir tapşırıq nümunəsi verə bilər. Çətin mətni oxumamışdan qabaq şagirdlər üçün çətin ola biləcək söz və ifadələri təyin edir. "İmpressionizm: təəssüratların poeziyası" mövzusunu keçəndən sonra müəllim "İmpressionizm", "Plener" və "Akademizm" sözlərini çıxararaq şagirdlərə təqdim etməlidir.

Bütün bu qeyd edilən təlim prosesləri təsviri sənət fənninin tədrisini daha da maraqlı edərək, müasir təhsil kurikulum metodlarına uyğunlaşdıralaraq, yeni təhsil obrazı yaradır....

## “DÜŞÜNCƏ TƏRZİ NƏZƏRİYYƏSİ” VƏ TƏSVİRİ SƏNƏT FƏNNİNİN TƏDRİSİNDƏ ƏHƏMİYYƏTİ

Orta məktəblərdə müasir təhsilin əsas prioritetlərindən biri şagirdlərin mövzular barəsində düşüncə tərzinin inkişaf etdirilməsidir. Bu istiqamətdə inkişafa diqqət yetirsək, məntiqi, yaradıcı və müqayisəlilik kimi prinsiplər ön plana çıxarılmalıdır. Təsviri sənət fənninin tədrisi metodikasında da əsərlər üzərində düşünmək və mühakimələr aparmaq şagirdlərdə müəllim tərəfindən diqqət yetirilməlidir.

Karol Dvek təxminən 30 ildən çox şagirdlər üzərində təcrübələr apararaq, onların uğursuzluqlara qarşı necə reaksiya verdiklərini təcrübə aparmışdır. Professor şagirdlərin öyrənmələrini iki istiqamət üzrə qruplaşdırmışdı:

1) İnkişafa açıq düşüncə tərzi

2) İnkişafa qapalı düşüncə tərzi

Təsviri sənət fənninin tədrisi metodikasında şagirdlər daha zəkalı, intelektual fikirlərə yer ayırmalıdırlar. İnsan beyni həqiqətən də, dəyişilə bilən bir orqandır, onun inkişafı üçün, qidalanma, yuxu rejimi və düzgün öyrənmə strategiyaları tətbiq edilməlidir.

Qapalı düşüncə tərzinə sahib şagirdlər təsviri sənət fənninin tədrisində çətinliklərlə qarşılaşdıqda çox tez ruhdan düşürlər, çünki fikirləşirlər ki, qabiliyyətləri yüksək deyil və ya zəif olduqlarını tez bir zaman da qəbul edirlər. Ona görə də təsviri sənət müəllimləri şagirdlərdən tez-tez “Mən bu fənni qavraya bilmirəm”, “Mən bu rəsmi çəkə bilmirəm” və ya “Mənə təsviri sənət fənni nəyə lazım?” kimi şərhlər eşidirlər.

İki fərqli düşüncə tərzinə malik şagirdlər həmçinin informasiyanı qəbul etmələrində də fərqlidirlər. Təsviri sənət fənninin tədrisi metodikasında öyrənmə nəticələrinin öz nəzarətlərində olan şagirdlər daha çox səy göstərir, daha çox təkrar edir, müxtəlif öyrənmə strategiyaları tətbiq edir.

İnkişafa açıq tipli düşüncə tərzinə malik şagirdlər təsviri sənət fənnini öyrənən zaman aşağıdakı qabiliyyətlərə malik olurlar:

- rəsm əsərləri işləyərkən çətinlikdən qorxmurlar;
- nəzəri və rəsm işləri zamanı səhvlərdən öyrənir;
- təsviri sənəti öyrənməyə marağı var;
- rəylərə qulaq asır və nəticə çıxarır.

Qapalı düşüncə tərzinə malik şagirdlər təsviri sənət fənnini öyrənən zaman aşağıdakı qabiliyyətlərə malik olurlar:

- təsviri sənət fənnini öyrənən zaman çətinliklərdən yayınır;
- təsviri sənət fənnini öyrənən zaman çətinliklərdən qorxurlar;
- rəsm əsərlərini işləyərkən "bacarmaram" deyir.

Təsviri sənət fənninin tədrisində müəllim şagirdləri xarakter və intellektlərini dəyişdirə bilərək, onları qapalı düşüncə tərzindən açıq düşüncə tərzinə keçid edə bilərlər. İlk növbədə şagirdlərə intellektin, zəkanın dəyişə bilən olduğu, beynin elastik olduğunu öyrətmək lazımdır. Digər bir tərəfdən isə risk götürmək mədəniyyətini yaratmaqdır, yəni şagirdlər səhv etməkdən qorxmamalı, öyrənmə yolunun səhvlərdən keçdiyini başa düşməli və etdikləri səhvlərə hədəfə çatmaq üçün lazım olan bir vasitə kimi baxmalıdırlar.

Düşüncə tərzinin inkişaf etdirilməsi zamanı təsviri sənət müəllimi tərifləyərkən düzgün metoddan istifadə etməlidir. Bu təcrübədə biz tərifləmə metodunun şagirdlərə risketmə bacarığının, etdiyi səhvlərə münasibətinin özünə inam zamanı necə təsir etdiyini müşahidə etməliyik.

- Təsviri sənət fənninin tədrisi zamanı inkişafa açıq düşüncə tərzinin olduğu sinfin digər bir xüsusiyyəti düşünmə və gözləmə vaxtlarına əməl olunaraq dərindən öyrənməni təmin etməkdir. Müəllim sualları verən zaman şagirdin cavab verməsini uzun müddət gözləməlidir. Cərəyanları keçən zaman təsviri sənət müəllimi müqayisə apararkən şagirdlərin fikirlərini uzun müddət gözləməlidir.

- Təsviri sənət fənninin tədrisi zamanı şagirdlər öyrənərkən estetik zövq və həzz almalıdır. Rəsm işləyərkən, əsərlər üzərində təhlil apararkən, estetik zövq və incəsənət nümunəsindən alınan həzz də əsas prioritet hesab edilməlidir.

- Uğura gedən yolda təsviri sənət müəllimi şagirdlərə rəy verərkən də diqqətli olmalıdır. Rəy verərkən nəzərə alınmalı olan ən vacib məqam rəyin destruktiv, yəni şagirdi emosional olaraq zədələyən, onu həvəsdən salan fikirlər deyil, əksinə konstruktiv, yəni şagirdi irəliyə apara biləcək dəstəkləyici olmalıdır.

- Təsviri sənət fənninin tədrisi zamanı şagirdlər əlavə məlumatlar öyrənən zaman müəllim tərəfindən qiymətləndirilərək, həvəsləndirilməlidir.

Göründüyü kimi, bütün bu sadalanan proseslərə diqqət yetirilsə,  təsviri sənətin tədrisi zamanı öyrənmə prosesi düzgün şəkildə qurular.

# TƏSVİRİ SƏNƏT FƏNNİNİN TƏDRİSİ METODİKASINDA "MƏNƏVİ İNKİŞAF" NƏZƏRİYYƏSİNİN ROLU

Təsviri sənət fənninin tədrisi metodikasına diqqət yetirsək pedaqoji və psixoloji yanaşmaların rolu mühümdür. "Zehni inkişafın mərhələləri" və "Mənəvi inkişaf" nəzəriyyələri qarşılıqlı formada inkişaf edərək şagirdlərin öyrənməsini asanlaşdırır. Lourens Kolberqin müəllifi olduğu "Mənəvi inkişaf" nəzəriyyəsi təsviri sənət fənninin tədris metodikasında psixoloji, yaradıcı, elmi əsasları özündə birləşdirir.

L. Kolberq mənəvi inkişafı 3 əsas səviyyəyə bölərək, qeyd edir ki, hər səviyyə iki mərhələdən ibarətdir. 6 mərhələdən ibarət olan bu nəzəriyyə insanın mənəvi və idraki inkişafının müəyyən mərhələsinə əsaslanır. Şagirdlərin mənəvi inkişaf mərhələlərinin hər biri təsviri sənət fənninin tədris metodikasında istifadə edilir. Bu səviyyədə uşaqların mənəvi dəyərləri verdikləri qərarlara əsasən ölçülür:

**1. İtaət və cəza.** Mənəvi inkişafın ilk mərhələsi olan "İtaət və cəza" şagirdlərdə kiçik yaşlarından müşahidə olunur. Bu qaydalara əməl etmək vacibdir, əməl etməsələr cəzalana bilərlər. Təəssüf olsun ki, 9-cu siniflərdə təsviri sənət fənnində qarmaqarışıqlıq və şagirdlərin fənnə qarşı biganəliyi dərsin ümumi planını pozur. Təsviri sənət müəllimi isə daha çox qısa və daha maraqlı hissələri şagirdlərdən soruşmalı, müxtəlif mövzularda esse tapşırıqları şagirdlərə hazırladaraq dərsi maraqlı edə bilər. Bu mərhələdə şagirdlər müəllimin dərsinə maraq göstərməli və ona qulaq asmalıdır.

**2. İndividualizm.** Bu mərhələnin təsviri sənət fənninin tədrisi metodikasında roluna diqqət yetirsək, şagirdlər əsərləri öz şəxsi düşüncələri əsasında təhlil edir. Bu mərhələdə şagirdlər bir-birlərinə karandaş və boyaları istifadə edərkən qarşılıqlı münasibətlərə əsaslanır.

**3. Qəbul olunma.** Bu mərhələdə şagirdlərin əsərləri mövcud kompozisiya quruluşuna görə deyil, rəssamın adına görə əsərin ümumi səviyyəsini qəbul edirlər. Pol Kli, Salvador Dali və Xuan Miro əsərlərinin quruluşu daha sadə olsa da tanınmış rəssam kimi qəbul olunurlar.

**4. Səlahiyyət və sosial nizamı qoruma**. Təsviri sənət fənninin tədrisi metodikasında cəmiyyətin incəsənət əsərlərinə münasibəti ümumi bir prinsip görərək, şagirdlər cərəyanları ümumi qaydalar əsasında mühakimə edirlər. Postimpressionizm cərəyanında dekorativ xüsusiyyət, fovizmdə isə daha sərt rəng həllərini söyləyə bilərik.

**5. Sosial müqavilə.** Mənəvi inkişafın bu mərhələsinin təsviri sənət fənninin tədrisində əhəmiyyətinə nəzər yetirsək, daha çox ədalətlilik prinsipi ilə yanaşılır. Bu prinsiplərə riayət edən şagirdlər təsviri sənətə digər əsas fənlər kimi baxaraq uğurla hazırlaşırlar.

**6. Universal etik prinsiplər.** Kolberqin fikrinə görə, bu mərhələ mənəvi inkişafın ən yüksək səviyyəsi olub, şagirdlərin etik prinsiplərini özündə birləşdirir. Çox təəssüf olsun ki, bir çox şagirdlər təsviri sənət fənninin tədrisi zamanı ya ümumi tapşırıqları yerinə yetirmir, ya da dərsdən qaçıb gedirlər. Amma ki, universal etik prinsipləri gözləyən şagirdlər bu qaydalara riayət edərək, təsviri sənət fənninin tədrisinə də diqqət yetirirlər.

Təsviri sənət fənninin tədrisi metodikasında "Mənəvi inkişaf" nəzəriyyəsini tətbiq etmək üçün aşağıdakı strategiyaları da əlavə etmək olar: Debat, Sokrat dialoqu, akvarium, müzakirə xəritəsi və s.

Həmçinin tədris metodikasına nəzəri və təcrübi tapşırıqların da qarşılıqlı əlaqəsini təmin etsək, təsviri sənətin tədris metodikasını inkişaf etdirə bilərik.

# TƏSVİRİ SƏNƏT FƏNNİNİN TƏDRİSİ METODİKASINDA "ÖYRƏNMƏNİN ŞƏRTLƏRİ" NƏZƏRİYYƏSİNİN TƏTBİQİ

Təsviri sənət fənninin tədrisi metodikasını şagirdlər üçün maraqlı etmək üçün müxtəlif pedaqoji nəzəriyyələrdən istifadə edilir. Robert Qanyenin (1916-2002) "Öyrənmənin şərtləri" nəzəriyyəsinin hər bir mərhələsi təsviri sənətin tədris metodikasında istifadə edilir.

Nəzəriyyənin tətbiqinə diqqət yetirsək, öyrənmə bir neçə tip və addımları özündə birləşdirir. Blumdan fərqli olaraq öyrənmə prosesini şərti hesab edir və tədris prosesiylə daha sıx bağlayır. Təsviri sənət fənnində eyni mövzunu müxtəlif şagirdlərə təqdim etsək, fərqli nəticələrə gələ bilərik.

Şagirdlər öyrənərkən əvvəlki bilik, zehni bacarıqlar və idrak strategiyalarından istifadə etməlidir. Həmçinin buraya şagirdlərin maraq və baxışları da əlavə edilir.

Təsviri sənət fənninin tədrisi metodikasında öyrənmənin 9 addımı aşağıdakı ardıcıllıq və öyrənmə metodları ilə qurulmalıdır:

1. Təsviri sənət fənninin tədrisi metodikasında şagirdlərin diqqətini dərsə cəlb etmək.

Təsviri sənət müəllimi ilk addımında şagirdləri dərsə cəlb etməyin yollarını axtarmalıdır. Bunun üçün aşağıdakı fəaliyyətlərdən istifadə etməlidir:

- şagirdlərə təsviri sənətlə bağlı düşündürücü, maraqlı suallar vermək;

- hər hansı bir şəkil, videoçarx və ya audiodan istifadə etmək;

- təsviri sənət fənninin tədrisi metodikasında problemli situasiya yaratmaq;

- təsviri sənət fənninin tədrisində hər hansı rəssam haqqında maraqlı fakt danışmaq;

Müəllim Vinsent Van Qoq yaradıcılığını keçərkən, təhlil edir və maraqlı faktları açıqlayır. Xüsusilə rəssamın həyatındakı psixoloji problemləri və əsərlərindəki gərgin rəng qammasını izah edir.



**İLL 4. Vinsent Van Qoq "Avtoportret"**

2. Təsviri sənət fənninin tədrisi metodikasında şagirdlərə təlim nəticələrini (dərsin məqsədini) elan etmək.

Təsviri sənət fənnini tədris edərkən hər bir mövzuda müəllim dərsin məqsədini əvvəlcədən elan etməklə şagirdlərin məqsədyönlü öyrənərək, öz fikirlərini formalaşdırmasını təmin edir. Təlim nəticələrinin təsviri sənət fənninin tədrisində aşağıdakı əsas fikirlərə diqqət yetirilməlidir:

- öyrədiləcək informasiyanın aktuallığını, həyatda təsviri sənətin harada və necə istifadə olunacağını göstərmək;

- şagirdlərdən təlim nəticələrini necə başa düşdüklərini soruşmaq;

- şagirdlərdən təsviri sənət fənni ilə bağlı nə əldə etmək istədiklərini maraqlanmaq.

Rənglər və tonlarının öyrənilməsi şagirdlərin həyatlarındakı zövq və dizayn həllərində köməklik göstərir.

3. Təsviri sənət fənninin tədrisində qazanılmış bilik və bacarıqları stimullaşdırmaq

Şagirdlərə təsviri sənət fənnində yeni mövzular keçərkən əvvəlki bilik və bacarıqlara istinad edilməlidir. Bu zaman şagirdlər əvvəlki biliklərlə əlaqə quraraq, inkişaf etdirici mövqe seçməli və məntiqi öyrənməyə əsaslanmalıdır.

Təsviri sənət fənninin tədrisində bu prosesi aşağıdakı qaydada keçirmək olar:

- əvvəlki mövzulara istinad edərək, yeni mövzu ilə əlaqələndirmək;

- əvvəlki biliklərlə bağlı sual vermək.

Müəllim Eldar Mikayılzadə yaradıcılığını şərh edərkən, xalçaçılıq mövzusuna aid bilikləri şagirdlərdə inkişaf etdirərək, yoxlamalıdır.



**İLL 5. Eldar Mikayılzadə “Yaranış”**

4. Təsviri sənət fənninin tədrisində dərsin mövzusunu təqdim etmək.

Hər bir fənnin tədrisində olduğu kimi təsviri sənətdə hər bir mövzunu keçərkən müəllim dərsin məqsədinə və şagirdlərin öyrənmə tərzini nəzərə alaraq müxtəlif yollarla mövzunu təqdim etmək tövsiyə olunur. Əlbəttə ki, şagirdlərin öyrənmə potensialları və tərzləri də bir-birindən fərqlənir. Bunu nəzərə alaraq təsviri sənətdə mövzunu öyrənərkən müxtəlif səmərəli üsullardan istifadə etmək lazımdır:

- eyni informasiyanı müxtəlif formatda təqdim etmək (maraqlı video, mühazirə, qrup işi);

- təlim nəticələrinə nail olmaq üçün təsviri sənət fənninin tədrisində düzgün metoddan istifadə etmək.

Təsviri sənət müəllimi memarlıq üslublarını keçəndən sonra müxtəlif videolar nümayiş etdirməlidir.

5. Təsviri sənət fənninin tədrisində öyrənməni təmin etmək.

Təsviri sənət müəllimi təlimi səmərəli etmək üçün öyrənməni dəstəkləyən müxtəlif yollardan istifadə edərək, aşağıdakı fəaliyyətləri tətbiq etməlidir:

- əlavə resursların təsviri sənət fənninin tədrisində istifadəsi;
- təsviri sənət fənninin tədrisində mövzu ilə bağlı araşdırmalar aparmaq;
- informasiyaları yadda saxlamaq üçün qeydlərdən istifadə etmək;
- təsviri sənət fənninin tədrisində cərəyan və rəssamlar haqqında məlumatları fərdi xüsusiyyətlərinə görə qruplaşdırmaq.

6. Təsviri sənət fənninin tədrisində bilik və bacarıqların tətbiqini təmin etmək.

Bu üsulun təsviri sənət fənninin tədrisində əsas rolu şagirdlərin praktik məşğələlərə cəlb olunmasıdır. Sinifdə şagirdlərə təsviri sənət fənni ilə bağlı situasiyalar təqdim edilməlidir.

- rollu oyunları təsviri sənət fənninin tədrisində əhəmiyyəti;
- məktəbin həyatində rəsm əsərləri işləmək;
- təsviri sənət fənni ilə bağlı esse və təqdimatlar hazırlamaq.

Şagirdlər sinifdə rənglərin qarışığından praktiki olaraq istifadə edib, öz istədikləri rəng çalarlarını əldə edə bilərlər.

7. Təsviri sənət fənninin tədrisində əks-əlaqə qurmaq.

Hər bir fənnin tədrisində olduğu kimi təsviri sənətdə də şagirdlərə rəy verilməlidir. Əlbəttə ki, şagirdlərə verilən rəy düzgün olmalıdır.

- qiymətləndirmə meyarlarını təsviri sənət fənnində şagirdlərə əvvəlcədən elan etmək;

- təsviri sənət fənnində yerinə yetirilmiş hər tapşırıqdan sonra məqsədə nə qədər yaxınlaşdıqları ilə maraqlanmaq.

8. Təsviri sənət fənninin tədrisində təlim nəticələrinin reallaşdırma səviyyəsini müəyyənləşdirmək

Gözlənilən təlim nəticələrinə təsviri sənət fənnində çatıb-çatmadıqlarını yoxlamaq üçün istifadə edilməlidir.

- təsviri sənət fənnində hər bir mövzunun sonunda refleksiya etmək;

- özünü və qarşılıqlı qiymətləndirməni təmin etmək.

9. Təsviri sənət fənnində informasiyanı möhkəmləndirmək və bacarığa çevirmək

Bu öyrənmə addımına təsviri sənət fənnində şagirdləri yönəltmək lazımdır ki, onlar əldə etdikləri bilik və bacarıqları yaradıcı tapşırıqlarla tamamlasınlar. Əsas diqqəti esse yazmaq, layihə hazırlamaq, ümumiləşdirmələr aparmaq kimi mühüm metodlar üzərində saxlamaq lazımdır.

Qeyd olunan hər bir mərhələ orta məktəblərdə təsviri sənət fənninin maraqlı etməklə şagirdlərin diqqətini cəlb etməlidir.

# TƏSVİRİ SƏNƏT FƏNNİNİN TƏDRİSİ METODİKASINDA “EMOSİONAL ZƏKA” NƏZƏRİYYƏSİNİN ROLU

Təsviri sənət fənninin tədrisi metodikasında təqdim edilən incəsənət əsərlərinə münasibət bildirən şagirdlərdə emosional düşüncələrin olması vacibdir. Daniel Qoulmana görə, insanın iki zəkası var: emosional və rasional zəka. İncəsənətdə ən vacib zəkalardan biri emosiyaların düzgün şəkildə ifadəsidir. Hər hansı rəsm əsəri barəsində düşüncələr və ya müstəqil fikir bildirmək emosional düşüncədə daxili hisslərin də qabardılmasına gətirib çıxarır. Bu zaman şagird təqdim edilən rəssamların əsərlərinə düzgün fikir bildirmək, özünün və başqalarının hisslərini düzgün təhlil edərək bitkin fikrə gəlməlidir. Emosional və rasional zəka bir-biri ilə sıx bağlıdır. Qoulmanın “Emosional zəka” nəzəriyyəsinin aşağıdakı əsas ideyaları təsviri sənət fənninin tədrisi metodikasında istifadə edilə bilər:

**1. Özünüdərk.** Hər bir şagird ilk növbədə özü haqqında məlumatlı olub, emosiyalarına agah olmalıdır. Qoulman qeyd edir ki, özünüdərk yüksək intuisiya və düzgün nəticə çıxarmağa əsaslanır. Qeyd etmək lazımdır ki, özünüdərk mənəvi inkişafa da bağlı olan amillərdən biridir.

Təsviri sənət fənninin tədrisi metodikasında özünüdərk şagirddən təqdim edilən əsər barəsində müstəqil fikirlərini söyləmək tələb olunur. Şagirdləri daha çox dekorativ-tətbiqi sənət və rəngkarlıq əsərləri maraqlandırır.

Rəngkarlıq əsərlərində özünün fikirlərini söyləyərkən şagird aşağıdakı mülahizələrə daha çox toxunur:

- rəng həlli;

- süjet həlli;

- obraz və məkan barəsində fikirləri;

- rəngkarlıq əsərini bəyənib və ya bəyənmədiyini söyləyir.

Dekorativ-tətbiqi sənət əsərləri barəsində isə şagird aşağıdakı fikirlərə toxunur:

- dekorativ-tətbiqi sənətin bəzək elementlərinə;

- dekorativ-tətbiqi sənət nümunəsində texnika fərqliliyi;

- dekorativ-tətbiqi sənət nümunəsinin istifadə edildiyi sahə;

- dekorativ-tətbiqi sənət əsərini bəyənib və ya bəyənmədiyini söyləyir.

**2. Özünüidarəetmə.** Qeyd etmək lazımdır ki, insan öz hisslərini rahat tanıdıqdan sonra onları daha rahat idarə edə bilir. Hər hansı bir əsər barəsində öz fikirlərini söyləyərkən şagird özünün idarəetmə bacarıqlarını ön plana çıxarmalıdır. Şagirdlər təsviri sənət dərslərində materialları bölüşərkən bir-birlərini daha düzgün başa düşməli və hisslərini idarə etməlidirlər.

**3. Motivasiya.** Emosional intellektin ən vacib komponentlərindən biri motivasiyadır, insanı nailiyyətə doğru aparır. Şagirdlərin maraq göstərdiyi fənlərdən biri təsviri sənət və sahələridir. Bu məqamda şagirdlər üçün motivasiya olacaq məqamlar aşağıdakılardı:

- rəsm əsərləri işləyərkən çətinliklərin öhdəsindən gəlirlər;

- təsviri sənətə maraq göstərir;

- hər bir rəsm əsərinə baxarkən yeni kəşflər edir;

- hər hansı sənətkar formalaşmaqda olan şagird üçün motivasiya mənbəyinə çevrilir;

- şagird təsviri sənət fənnində gördüyü işlərdən zövq alır.

Motivasiyanın güclənməsi isə valideynlər və müəllimlərdən asılıdır.

**4. Sosial məlumatlılıq (empatiya).** Təsviri sənətin tədrisi metodikasında "Emosional zəka" nəzəriyyəsinin empatiya sahəsidə özünəməxsus fərdi xüsusiyyətləri ilə seçilir. Empatiya hissi güclü olan şagirdlər davranış, mimika və jestlərə əsasən rəssamın keçirdiyi hissləri asanlıqla müəyyənləşdirə bilir. Şagirdlər rəssam yaradıcılığını və ya əsərinə empatiya bildirərkən mühakimə etməməlidirlər. Empatiya hisslərinə malik olan şagirdlər özlərinə maraqlı oxşar xüsusiyyətlərə malik əsər və ya rəssamları daha diqqətlə öyrənirlər.

**5. Münasibətlərin idarə edilməsi.** Təsviri sənətin tədrisi metodikasında münasibətlərin idarə edilməsi zamanı aktiv dinləmək, verbal və qeyri-verbal kommunikasiya qurmaq, liderlik və inandırıcılıq qabiliyyəti nəzərdə tutulur. Qeyd etməliyik ki, sosial bacarıqlara malik olmaq başqalarını anlamaq və düzgün münasibət qurmaqdır.

Şagirdlərdə təsviri sənətin tədrisi zamanı emosional intellekti aşağıdakı kimi formalaşdıra bilərik:

- istiqamətləndirici sualların verilməsi;
- dəstəkləyici mühitin yaradılması;
- özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə;
- refleksiya və metakoqnitiv düşüncəni dəstəkləyən fəaliyyət.

Təsviri sənətin tədrisi zamanı “Emosional zəka” nəzəriyyəsinin əhəmiyyətli rolu şagirdlərdə estetik zövq, dünyagörüşünün inkişafı və gələcək fəaliyyətlə bağlı mühüm bacarıqları inkişaf etdirir.

## ŞƏXSİYYƏTİN FORMALAŞDIRILMASINDA TƏSVİRİ SƏNƏT FƏNNİNİN ROLU

Ümumiyyətlə şəxsiyyətin inkişafı daxili və xarici amillərlə bağlıdır. Genetik, fiziki, fizioloji faktorlar daxili amillərlə bağlıdır. Hər hansı şagirdin genetikasında incəsənətə meyilli xüsusiyyət varsa onun da sənət əsərlərinə qarşı münasibətində fərqli xüsusiyyəti izləyə bilərik. Xarici amillər dedikdə isə şagirdin fərdi mədəniyyətə sahibliyi və ailə mühiti nəzərdə tutulur. Ailədə şagirdin istedadını üzə çıxarıb, inkişaf etdirmək üçün valideynlər tərəfindən sağlam mühit formalaşdırılmalıdır.

Təsviri sənət fənni həm də formalaşmaqda olan gənc nəslin tərbiyəsində mühüm rol oynayır. Uşaqlarda dəyərlərin formalaşdırılması, mənəvi keyfiyyətlərin aşılanması və inkişafında tərbiyənin rolu əhəmiyyətlidir. Şagirdlər informasiyanı əldə edərkən özləri üçün mühüm qərar verirlər. Təsviri sənətin tədrisi zamanı şagirdlər rəssam yaradıcılığını və ya incəsənət əsərini müzakirə edərkən özləri üçün vacib olan məqamları araşdırır.

K.Yunq insanları iki tipə ayırır: ekstravertlər və introvertlər.

Ekstravert şagirdlər üssiyyəti çox sevir, təklik onlar üçün sıxıcıdır, ətrafdakı yoldaşlarının fikrinə bir çox hallarda əsaslanırlar, nəticə çıxarmağa tələsdikləri üçün qısamüddətli yaddaşdan istifadə edirlər. Təsviri sənət fənninin tədrisi zamanı ekstravert şagirdlər asanlıqla sinifdə aktiv üzv olub, dərsdə fəal iştirak edirlər. Ekstravert şagirdlərin daima motivasiyası xarici stimullar olduğundan təsviri sənət fənninə və

mövzulara qarşı daima həvəsləndirilməsi vacibdir. Rəsm əsərləri işləyərkən xoş sözlər demək, dərs danışarkən onları stimullaşdırmaq bu tip şagirdlər üçün vacibdir.

İntrovert şagirdlər uzun və səthi mövzulardan yorulurlar, təklik onlar üçün motivasiya mənbəyidir, şəxsi subyektiv mülahizələrə əsasən nəticə çıxarırlar, nəticə çıxarmaq üçün daha çox vaxta ehtiyac duyurlar. Bu tip şagirdlər təsviri sənət fənnində hər hansı incəsənət əsəri barəsində fikirləri şəxsi subyektiv düşüncələrinə əsasən verirlər.

Psixoloq Hans Ayzenk ilk dəfə olaraq ambivert terminini irəli sürmüşdür. Bəzi şagirdlərdə hər iki şəxsiyyət tipi eyni dərəcədə inkişaf edə bilir, bu da nadir halda rast gəlinir.

Təsviri sənət müəllimi şəxsiyyətin formalaşması və inkişafında mühüm rol oynayır. Məktəb mühiti şagird şəxsiyyətinin formalaşdığı vacib sosial-mədəni-ictimai mühitdir. Müəllim-şagird arasındakı etibarlı münasibət şagirddə doğruluq və inama əsaslanan xarakter formalaşdırır. Şagirdlər təsviri sənət fənnindən ev tapşırıqlarını etmədikdə cəzalandırılan zaman bəzən bəhanələr axtarır, yalan danışır. Ona görə də müəllim-şagird münasibətləri daima inkişaf etdirilməlidir.

Təsviri sənət fənninin tədrisində şəxsiyyətin formalaşdırılması üçün istifadə olunan strategiyalar aşağıdakılardı:

**- Qruplarla iş.** Müəllim təsviri sənət fənnində qruplara tapşırıq verərkən, introvert və ekstravert şagirdlərdən ibarət qarışıq qruplar təşkil etməlidirlər. Belə ki bu qruplarda fərqli şəxsiyyət tipləri bir-birlərindən öyrənirlər. Qarşılıqlı öyrənmə və əməkdaşlıq zamanı bu tip şagirdlər bir-birlərindən müəyyən bacarıqlar mənimsəyirlər.

**- Düşünmə vaxtının verilməsi.** Təsviri sənət fənnində müəllim şagirdlərə müraciət edərək dərhal cavabı tələb edərkən müxtəlif şəxsiyyət tiplərinə malik olan şagirdləri nəzərdən keçirib, onların xüsusiyyətlərinə uyğun düzgün dərs planlaması aparmalıdır.

**- Müsbət gözlənti.** Məktəbdə formalaşan şəxsiyyətə təsir edən amillər sırasına təsviri sənət müəlliminin şagirddən gözləntiləri də bu sıraya daxildir. Şagirdlər məktəbdə təsviri sənət barəsində nəinki faydalı bilik və bacarıqlar əldə edirlər, həm də onların estetik zövqü, xarakteri, dünyagörüşü formalaşır.

**- Müzakirə prosesinin təşkili.** Təsviri sənət müəllimi diqqət yetirməlidir ki, şagirdlər kənar müdaxilə olmadan fikirlərini ifadə etsinlər. Rəssamların əsərlərini müzakirə edərkən dinləyib-anlama və müzairə etikası formalaşdırılmalıdır.

**- Tərbiyədə əks-əlaqə.** Şagirdə neqativ xüsusiyyətləri aradan qaldırmaq üçün onun müsbət cəhətlərinə təsviri sənət müəllimi istinad etməlidir.

**- Sağlam və qayğıkeş mühit.** Təsviri sənət müəlliminin ən vacib xüsusiyyətlərindən biri sinifdə sağlam və qayğıkeş mühit qurmasıdır. Qeyd etmək lazımdır ki, qayğı, nəvaziş göstərilən şagird həmişə cəmiyyətin əsas üzvü olur.

**- Sosial və emosional bacarıqlar.** Təsviri sənət müəlliminin digər bir bacarığı şagirdlərdə sosial və emosional bacarıqlara əsaslanan xarakter formalaşdırmalıdır. Əks halda isə bu prosesin təşkilində müəllim çətinlik çəkəcək.

**- Yüksək ideallara sahib olmaq.** Təsviri sənət müəllimi hər zaman şagirdlərlə özündə yüksək dəyərlər daşımış in-

sanlar haqqında söhbətlər apararaq, həmin şəxsiyyətlərin davamçısı kimi getməyə həvəsləndirməlidir.

- **Səmərəli vərdişlər.** Ümumiyyətlə vərdişlər insanın bütün davranış və xarakterlərini özündə birləşdirən mühüm bir faktordur. Təsviri sənət müəllimi daima şagirdlərdə yaxşı vərdişlərin olmasına çalışmalıdır.

Təsviri sənət müəllimi şagirdlərin formalaşdırılması və inkişafı üçün aşağıdakı digər xüsusiyyətlərə də diqqət yetirməlidir:

- İradə gücünün formalaşdırılması;
- özü ilə bağlı refleksiya etmək;
- mənəvi-əxlaqi müzakirələr;
- ümumi məktəb mühitinin ədalət və hörmət hisslərinə əsaslanması.

Qeyd etmək lazımdır ki, bu gün formalaşmaqda olan şagird gələcəkdə mükəmməl xüsusiyyətlərə malik şəxsiyyətə çevrilməlidir.

# İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT


1. Ağayev E. "Orta məktəblərdə təsviri incəsənət fənninin tədrisi: problemlər və həllər". "Ümumi təhsildə kurikulum islahatları: nəticələr və perspektivlər" mövzusunda respublika elmi-praktik konfransının materialları. Naxçıvan 2020, s 223-224.
2. Axundzadə L. XX əsr dünya təsviri incəsənəti. Bakı 2011.
3. Atayev S.; Cəlilova Y. İbtidai siniflərdə naturadan rəsmin tədrisi metodikası. Bakı 2014.
4. Əliyev Z. Sənətin məcnunu. Bakı 2009.
5. Əliyev Z. Səttar Bəhlulzadə yaradıcılığında sənətkarlıq məsələləri. Bakı 2016.
6. Rüstəmov F. Ən yeni dövrün pedaqogika tarixi. Bakı 2005.
7. Ümumtəhsil məktəblərin I-IX sinifləri üçün təsviri incəsənət dərslikləri.
8. Ümumtəhsil məktəblərin I-IX sinifləri üçün metodik vəsaitlər.
9. Metodika və pedaqogika. TAİM, Maksimum 2024. 182 s.



Emil Raul oğlu Ağayev 1993-cü il avqustun 9-u Sumqayıt şəhərində ziyalı ailəsində anadan olub. 2014-2018-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Sənətşünaslıq" ixtisası üzrə bakalavr təhsili alıb və fərqlənmə diplomu ilə bitirib. 2018-2020-ci illərdə isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında "Təsviri incəsənət tarixi və nəzəriyyəsi" ixtisası üzrə magistr təhsili alıb və fərqlənmə diplomu ilə bitirib. 2020-ci ildə ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "İncəsənət və fiziki tərbiyə" fənn birləşmə komissiyasına müsabiqə yolu ilə müəllim vəzifəsinə qəbul olunub və fəaliyyətini davam etdirir. 2022-2023-cü illərdə Laçın rayon 34 nömrəli tam orta məktəbdə, 2023-2024-cü illərdə Sumqayıt şəhər 6 nömrəli tam orta məktəbdə, 2024-cü ildən isə Sumqayıt şəhər 21 nömrəli tam orta məktəbdə təsviri incəsənət müəllimi vəzifəsində çalışır. Müxtəlif illərdə ölkənin qabaqcıl ali təhsil müəssisələrində təsviri sənətdən mühazirələr oxumuşdur.

170 yerli və beynəlxalq konfransda elmi məruzələrlə çıxış etmişdir. Azərbaycan, Türkiyə, ABŞ, Moldova, Braziliya, Kolumbiya, Hindistan, Özbəkistan, Fransa, İngiltərə, İspaniya, İtaliya, İsveçrə, Almaniya, Albaniya, Şimali Makedoniya, Bolqarıstan, Gürcüstan, Polşa, Avstraliya, Norveç, Rumıniya, Portuqaliya və Finlandiyada keçirilən beynəlxalq konfranslarda elmi məruzələrlə çıxış etmiş və sertifikatlara

layiq görülmüşdür. Azərbaycan, ABŞ və Türkiyədə çap olunan beynəlxalq konfrans kitablarının redaktoru olmuşdur. “Təsviri sənət və onun tədrisi metodikası”, “Azərbaycan miniatür sənəti”, “Şərq ölkələrinin incəsənəti”, “Dekorativ-tətbiqi sənətin müasir inkişaf istiqamətləri” və “Təsviri incəsənət tarixi” fənlərini tədris etmişdir.

Azərbaycan, Türkiyə, ABŞ, Fransa və Rumıniyada keçirilən beynəlxalq konfranslarda bölmə iclaslarına rəhbərlik etmiş və moderator sertikatına layiq görülmüşdür.

180 elmi məqalə və tezis, 7 publisistik məqalə, 18 fənn proqramı, 1 dərslik, 1 dərs vəsaiti, 1 metodik vəsait və 1 monoqrafiyanın müəllifidir.

## MÜNDƏRİCAT

**Giriş ........................................................................... 3**

**Təsviri sənət fənninin tədrisi metodikasında**
**“Çoxnövlü zəka” nəzəriyyəsinin tətbiqi .......................... 5**

**Təsviri sənət fənninin tədrisi metodikasında**
**“Zehni inkişafın mərhələləri” nəzəriyyəsinin tətbiqi .... 9**

**Təsviri sənət fənninin tədrisi metodikasında**
**“Yaxın inkişaf zonası və sosial münasibətlər”**
**nəzəriyyəsinin rolu .......................................................... 13**

**“Düşüncə tərzi nəzəriyyəsi” və təsviri sənət**
**fənninin tədrisində əhəmiyyəti ....................................... 16**

**Təsviri sənət fənninin tədrisi metodikasında**
**“Mənəvi inkişaf” nəzəriyyəsinin rolu ............................ 19**

**Təsviri sənət fənninin tədrisi metodikasında**
**“Öyrənmənin şərtləri” nəzəriyyəsinin tətbiqi ............... 22**

**Təsviri sənət fənninin tədrisi metodikasında**
**“Emosional zəka” nəzəriyyəsinin rolu ........................... 28**

**Şəxsiyyətin formalaşdırılmasında təsviri sənət**
**fənninin rolu .................................................................... 32**

**İstifadə olunan ədəbiyyat ............................................... 36**

# EMİL AĞAYEV

# TƏSVİRİ SƏNƏTİN TƏDRİSİ METODİKASI

## (PEDAQOJİ VƏ PSİXOLOJİ YANAŞMALAR KONTEKSTİNDƏ)

## METODİK VƏSAİT

Bakı: "ZƏNGƏZURDA" Çap Evi, 2024 – 40 səh.

**Çap evinin rəhbəri:**
Mübariz Binnətoğlu

**Korrektor:**
Şəbnəm Allahverdiyeva

**Kompüter tərtibçisi:**
Şamxal Şabiyev

Çapa imzalanmışdır: 27.10.2024
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 2,5 ç.v.
Sifariş: 806
Sayı: 50

---

"ZƏNGƏZURDA" Çap Evində çap olunub.
**Redaksiya ünvanı:** Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
+994 55 253 53 33
e-mail: zengezurda1868@mail.ru